ƏLİ ƏHMƏDOV
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı*

# XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANIN XƏZİNƏ KƏNDLİLƏRİNİN TORPAQ TƏMİNATINA DAİR

XIX əsrin sonu – XX əsrin əvvəlləri Cənubi Qafqazda kapitalıst münasibətlərinin inkişafı dövlət kəndində yeni islahatların verilməsini tələb edirdi. Uzun müddət xəzinə kəndlilərinin torpaqdan istifadə, torpaq təminatı, kəndli torpaqlarının həcmi kimi bu və ya digər məsələlər XIX əsrin 40-60-cı illərində verilmiş qanunlarla nizamlanırdı. İmperiyanın ucqar regionu hesab olunan Cənubi Qafqaz quberniyalarında həmin illərdə verilmiş islahatlar çarizmi qane edirdi və heç bir dəyişikliyin edilməsi gözlənilmirdi. Lakin çarizm kapitalizmin inkişafı ilə ayaqlaşa bilməyən dövlət kəndində islahatların verilməsi məcburiyyətində qalır.

Azərbaycan tarixşünaslığında aqrar tarixin tədqiq olunmasında bir sıra tarixçilərin əməyi vardır. Aqrar tarixin öyrənilməsində müxtəlif səpgili problemlər araşdırılan xeyli əsərlər yazılmışdır (7; 8; 9; 10; 11; 12; 13; 14; 20; 22). Onlar özlərindən sonra zəngin irs saxlamışlar. Lakin bununla belə bəzi məsələlər hələ də öz tədqiqatını gözləyir.

Cənubi Qafqazda canişinlik idarə üsulu ləğv edilənədək çarizm xəzinə kəndlilərinin təsərrüfat-hüququ quruluşunda heç bir əhəmiyyətli dəyişiklik etməmişdi. XIX əsrin 50-ci illərində, əvvəllər müəyyən olunmuş torpaqların bölünməsi qaydası pozuntulara məruz qalır. Belə ki, kənd icmasını öz əllərinə almış varlı kəndlilər icma qaydası adlanan qaydanı pozmağa başlamışdılar. 1880-ci illərdən başlayaraq torpaqların bölüşdürülməsi işi bəzi icmalar istisna olmaqla, demək olar ki, dayandırılır (Bax: 12, s.113-117.)

Qaydaya görə kənd icmalarının istifadəsindəki torpaqlar 3-4 ildən bir xəzinə kəndliləri arasında kənd icmasının yığıncağında bölünməli idi. Lakin «məlum olduğu kimi yerli icmaların çoxunda torpaq 20-30 və hətta 40 ildən bir bölüşdürülürdü. Bu isə pay torpaqlarının çox hissəsini öz əllərində toplamağa müvəffəq olmuş azlara qarşı çoxların tələbinin dəhşətli səciyyə aldığı zaman edilirdi» (21, s.41). Bu dövrdə Cənubi Qafqaz xəzinə kəndlilərinin torpaq sahibkarlığı «hökumətin səlahiyyətindəki qanunların icrasına əsaslanmayan tamamilə, faktiki olaraq zəbt edilməyə söykənir, bu da özlüyündə əsla qanuni qadağan edilmiş özbaşına istifadəni göstərir» (3, s.181).

Dövrün məlumatına görə xəzinə kəndlilərinin təsərrüfat həyatındakı qeyri-müəyyənlik elə səviyyəyə çatmışdı ki, «torpaq münasibətlərinin mükəmməl bilicisi, ən təcrübəli hüquqşünas belə torpaq üzərində kəndli hüquqlarının izah edilməsində çaşğınlıq içərisində qalır» (16, s.242). Belə vəziyyət onsuz da ağır həyat şəraitində yaşayan kəndli istehsalçıların xeyli hissəsinin torpaqdan istifadə məsələsini daha da çətinləşdirir, onları çar idarələrinə torpaq çatışmazlığı, torpağın qeyri-bərabər bölüşdürülməsi, yaxud da heç bölüşdürülməsi barədə şikayət ərizələri yazmağa vadar edirdi.

Qeyd etmək lazımdır ki, xəzinə kəndlilərinin istifadəsində olan torpaqların sərhədlərinin müəyyən olunmaması, onların torpaqlarının zəbt edilməsi işini asanlaşdırırdı. Ölkədə mərzləmə işi aparılmadığından hətta ayrı-ayrı kənd icmaların istifadəsində olan torpaqların sərhədləri məlum deyildi. Bu hal kəndlilər və bütöv kəndlər arasında münaqişəyə, qanlı toqquşmalara gətirib çıxarırdı.

Hələ 1861-ci il iyunun 29-da «Cənubi Qafqaz ölkəsinin mərzlənməsi haqqında əsasnamə» təsdiq olunmuşdu. Əsasnaməyə görə «həm kənd icmalarının istifadəsində

olan və həm də onların bilavasitə istifadəsində olmayan xəzinə torpaqlarının sərhədlərini müəyyənləşdirmək qaydası qoyuldu (14,s.198).

Əsasnaməyə əsasən hər bir kənd icmasının bilavasitə istifadəsində olan torpaqlar, həmin icma üçün ayrılmalı və torpaq sahəsinin sərhəddi müəyyən edilməli idi. Lakin torpaqların mərzlənməsi işi ya ləng aparılır, ya da bu sahədə heç bir iş görülmürdü. Beləliklə sosial münasibətlərin kəskinləşməsi çar hökumətini xəzinə kəndlilərinin torpaqdan istifadəsi və mərzləmə məsələsi ilə məşğul olmağa məcbur etdi. Digər tərəfdən hökuməti «kəndlilərin vəziyyətinin yaxşılaşdırılması» ilə yanaşı, toplanacaq vergiləri də düşündürürdü.

Çar hökumət orqanları xəzinə kəndində aqrar islahatın layihəsini hazırlamaq üçün xəzinə kəndlilərinin iqtisadi məişətini öyrənmək məqsədi ilə 1884-cü ilin əvvəllərində bir qrup mütəxəssisi səfərbər edib ayrı-ayrı qəzalar üzrə bölüşdürərək, onlara xəzinə kəndlilərinin torpaqla təminatı, onların meşə və otlaqlara münasibəti, torpağın mənsubluq vəziyyəti, xəzinə kəndlilərinin əkinçilikdən və heyvandarlıqdan kənar digər gəlir mənbələri, torpaqların məhsuldarlığı, istifadəsi, xəzinə torpaqlarının həcmi və s. barəsində lazımi məlumat toplamaq tapşırığı verilmişdi. Mütəxəssislər tərəfindən üç ilə yaxın müddətdə aparılan araşdırmalar 1885-1887-ci illərdə Tiflisdə yeddi cilddən ibarət «Cənubi Qafqaz ölkəsi xəzinə kəndlilərinin iqtisadi məişətini öyrənmək üçün materiallar» (Bax: 17) adı ilə nəşr olundu. Müvafiq materiallar toplandıqdan, hətta onların nəşr olunmasından sonra da çar hökumət dairələri islahat layihəsinin hazırlanmasına tələsmirdi.

Çarizmin ucqarlarda yeritdiyi iqtisadi siyasətində Rusiyanın daxili quberniyaları ilə müqayisədə ayrı-seçkilik özünü açıq şəkildə biruzə verirdi. Bunu xəzəinə torpaqlarının hərracla icarəyə verilməsi qaydalarından aydın görmək olar. Belə ki, bu qaydalar imperiyanın hər yerində vahid şəkildə tətbiq edilmirdi. Hökumət 1884-cü ilin oktyabrın 9-da Rusiyada (Sibir çıxmaq şərti ilə) xəzinə torpaqlarının kənd icmalarına hərracsız olaraq icarəyə verilməsi haqqında qanun vermişdi. 1889-cu ildə iyun ayının 16-da həmin qanuna əlavələr olunacaq Sibir kəndlilərinə də şamil edilməyə başlanıldı. Altı il sonra Maliyyə və Daxili İşlər Nazirliklərinin razılığı ilə 1884-cü il qanununa yenidən baxılaraq, dəyişikliklər edildi (19, s.71). Lakin xeyli müddət keçməsinə baxmayaraq, nə 9 oktyabr qanunu, nə də ona edilən əlavələr Cənubi Qafqaz kəndlilərinə aid edilmədi. Çar hökuməti yalnız 1899-cu ilin iyunun 2-də Qafqazın ali hakimiyyət orqanlarının razılığı ilə xəzinə torpaqlarının hərracsız olaraq kənd icmalarına icarəyə verilməsi haqqındakı 1884-cü il 9 oktyabr qanununun burada tətbiq olunmasına icazə verdi. Qanundan yalnız rusların yaşadıqları kənd icmaları bəhrələnə bilərdi (19, s. 72).

1887-ci il iyunun 2-də Cənubi Qafqaz ölkəsinin mərzlənməsi haqqında yeni bir əsasnamə elan edildi. Bu əsasnaməyə görə onlarla kəndin və xeyli xəzinə torpaqlarının daxil olacağı dairələri təşkil etmək və onlar arasında sərhəd qoymaq nəzərdə tutulurdu. Əsasnamə mərzləmə işini çox dolaşıq hala saldı və bu işin qarşısını aldı. Mərzləmə ilə bağlı verilmiş 1861-1887-ci illər islahatları xəzinə kəndlilərinin tələblərinə cavab vermirdi, onlar buna qədər daha yaxşı yaşayırdılar, onların pay torpaqla təminatı istənilən xüsusiyyətçilik hüquqlarını təmin etmirdi, torpaqlar xəzinə torpağı hesab olunurdu və istifadəsinə görə vergi verilməli idi. Kəndlilərin torpaq quruluşu haqqında qanun veriləne qədər hökuməti onların vəziyyəti ilə maraqlı olması qənaətində idi. «Xalqın beyinlərində köhnədən qalma fikirlər hökmran idi. Xalqın fikrinə görə torpaq ayrı-ayrı adamların şəxsi mülkiyyəti ola bilməz, ondan istifadə hüququ hər kəsə məxsusdur. Ona görə də bir çox hallarda kəndlilər başa düşə bilmirdilər ki, ödənc pulu verilən torpaqlar, onların xüsusi torpaqları hesab olunur» (2, s. 418). Beləliklə, 1887-ci il 2 iyun qanunu

1861-ci il əsasnaməsinə nisbətən geriyə atılmış bir addım idi. Nəticə etibarilə torpaq üstündə münaqişələrin sayı, kəndlilərin narazılığı daha da artırdı.

1892-ci ildə xəzinə kəndlilərinin torpaq məsələsi haqqında yeni qanun layihəsi hazırlamaq üçün xüsusi bir komissiya təşkil edildi. Bu komissiya 1884-1887-ci illərdə Cənubi Qafqaz xəzinə kəndlilərinin iqtisadi məişətinin tədqiqi nəticəsində əldə edilmiş materialları öz işi üçün əsas götürdü. Komissiya «Cənubi Qafqaz ölkəsinin xəzinə torpaqlarında yaşayan kəndlilərin torpaq məsələsi barədə» qanun layihəsini tərtib etməli, həmçinin sahibkar torpaqlarından çıxarılmış kəndlilərin torpaq məsələsini qaydaya salmaq problemini müzakirə etməli idi. Bunun üçün Cənubi Qafqazın quberniyaları üzrə xəzinə kəndlilərinin torpaqla təmini məsələsinin qaydaya salınması haqqında əhatəli qeydlərin hazırlanması lazım gəlirdi. Bu iş komissiyanın sədri təyin olunmuş, müşavir Y.S.Medvedyevə həvalə edilmişdi.

İşə başlayan komissiya böyük çətinliklərlə üz-üzə qalmışdı. Bu da əvvəllər verilmiş qanunlardakı boşluqlarla əlaqədar idi. Komissiya tərəfindən hazırlanmış qeydlər 1896-cı ildə komissiya daxilində müzakirə olunmuşdu. Sənəddə göstərilirdi ki, «bütün qəzalarda tamamilə torpaqla təmin olunmamış kəndli icmaları ilə yanaşı, torpaq çatışmazlığından əziyyət çəkənlər, hətta artıqlaması ilə torpaq sahələri olanlar da var» (4, s. 14). Komissiya sədri torpaqsız və aztorpaqlı kəndliləri boş olan xəzinə torpaqları hesabına təmin etmək təşəbbüsünü ortaya atır və eyni zamanda bu torpaqlar az olduğuna görə pay torpaqlarını nizama salmaq üçün onun artığını kənddə birindən alınıb, onun həmkəndlilərinə verilməsini düzgün çıxış yolu olduğunu hesab edirdi.

«Sənəddə» («Qeydlərdə») torpaqların hansı əsaslarla – istifadəyəmi, yoxsa mülkiyyət kimi kəndlilərə verilməsi məsələləri geniş yer tuturdu. Y.S.Medvedyev belə hesab edirdi ki, kəndli təsərrüfatı «olduqca aşağı mədəni səviyyədə» olduğuna və kəndlilər hökumətin qayğısına ehtiyac duyduqlarına görə, torpaq onlara xüsusi mülkiyyət hüququnda deyil, daimi istifadə hüququnda verilməlidir (4, s.9). Burada həmçinin kəndlilərə vergi ödəmək şərtilə, meşə pay torpaqları verilməsi məsələsinə də toxunulurdu, digər məsələlərlə yanaşı, bu və ya digər səbəb özündən sahibkar torpaqlarında olan xəzinə kəndlilərinə də müəyyən yer ayrılır və bildirilirdi ki, «azad torpaq sahələri çatışmadığı üçün onları xəzinə torpaqları ilə təmin etməyin mümkünlüyü olduqca şübhəlidir» (4, s. 12).

«Pay torpaqlarının qaydaya salınması» adlı qeydlərin müzakirəsi zamanı xəzinə kəndlilərinin qeydlərdə təsvir olunmuş vəziyyəti ilə daha yaxından tanış olan komissiyanın bəzi üzvləri, göstərirdilər ki, çox torpaqlı kəndlilərin torpaqlarının bir qismini onların əllərindən almaq yolu ilə pay torpaq sahələrini qaydaya salmaq mümkün deyildir. Həm də kəndin sosial-iqtisadi vəziyyəti elə idi ki, nəinki bunu etmək mümkün deyildi, çox torpaqlı kəndlilərin torpaqlarının bir qisminin onların əllərindən almaq barədə heç söhbət də gedə bilməzdi.

«Qeydlər» əsasında hazırlanmış qanun layihəsi tezliklə bütün materiallarla Peterburqa Əkinçilik və Dövlət Əmlakı Nazirliyinə təqdim olunur. Materiallar Nazirlikdən Tiflisə, Qafqazın baş rəisinə, burada layihə müzakirə olunmaq üçün 1896-cı ilin sonunda idarənin nəzdindəki Şuraya göndərilir. 1897-ci ilin mayında qanun layihəsini müzakirə edən Şura üzvlərinin çoxu pay torpaqlarının bərabər surətdə bölünməsinin və torpaqlı kəndlilərə boş xəzinə torpaqları hesabına pay torpağı verilməsinin əleyhinə çıxdılar. Şura üzvləri «kənd sakinlərinin layihədəki torpaq təminatının yaxşılaşdırılması üçün geniş təxirəsalınmaz proqramın hazırlanmasını» (6, s.100), xəzinə torpaqlarının hökumət tərəfindən yalnız bu ərazilərə köçürülmüş rus kəndlilərinə verilməsini bildirmişdilər.

Torpaq haqqında yeni qanun verilməzdən əvvəl mərzləmə işinə başlamaq və ayrı-ayrı kənd icmaları və sahibkarların ixtiyarında olan torpaqların sərhədlərini müəyyən etmək lazım gəlirdi. Bu məqsədlə 1897-ci ilin may ayının 26-da yeni bir qanun verildi. Qanuna görə «1887-ci il 2 iyun qanunu nəşr olunmamışdan mövcud olmuş mərzləmə qaydalarını bərpa etməyə imkan verildi» (4, s.199). 1897-ci il 26 may qanununa görə icmanın bilavasitə istifadəsində olan torpaqlar həmin kənddə yaşayan xəzinə kəndliləri üçün müəyyən edilmiş normadan artıq olduqda belə torpaqlardan kəsib götürmək qadağan olunurdu. Beləliklə, torpaqların kənd icmalarının və ayrı-ayrı ailələrin ixtiyarına keçməsi üçün müəyyən şərait yarandı (14, s. 199).

Əkinçilik və Dövlət Əmlakı naziri Qafqazın baş rəisinin rəyini aldıqdan sonra, onu öz sədarəti altında yaratmış olduğu mərkəzi komissiyanın 1898-ci ilin əvvəlində keçirilmiş yığıncağında müzakirə etdi. Komissiya tərəfindən kəndlilərin pay torpaqları haqqındakı bəzi təkliflər rədd edildi və az torpaqlı kəndlilərin torpaqla təmin olunması məsələsində çarizmin müstəmləkə siyasətinə üstünlük verildi. Əkinçilik və Dövlət Əmlak naziri Yermolov «Qafqazda rusların yerləşdirilməsi kimi mühüm dövlət əhəmiyyətli vəzifənin yeri əhalinin torpaqla təmin olunması məsələsindən daha irəli olduğunu» qeyd edirdi (3, s.20).

Bu qanun «Cənubi Qafqazın dövlət torpaqlarında sakin olmuş xəzinə kəndlilərinin torpaqlarının qeyri-müəyyənliyi» xatırlamaqla Əkinçilik və Dövlət Əmlakı Nazirliyinin qarşısına «Layihənin əsasını təşkil edən xəzinə kəndlilərinin torpaq quruluşunun işlənməsi və Dövlət Şurasının müzakirəsinə verilməsi» məsələsini qoymuşdu. Nazirliyə torpaq payının müəyyən olunmasının nizama salınması haqqında layihə qaydalarının təqdim olunması tapşırılmışdı. Bu kəndlilərə ərazinin bu və ya digər məntəqələrində torpaqdan istifadə hüququnu sübut etmək imkanı verirdi (12, s.135).

Nəhayət, 1900-cü il mayın 2-də «Tiflis, Yelizavetpol, Bakı və İrəvan quberniyaları xəzinə kəndlilərinin torpaq təminatının mühüm əsasları» adlı qanun çar II Nikolay tərəfindən təsdiq edilir (3, s.18-20). Qanuna görə, pay torpaqları onlardan əvvəlki qaydada istifadə edilməklə kənd icmalarına, kəndlilərə və yaşayış məntəqələrinə ayrılırdı. Dövlət torpaq mülkiyyətçisi kimi çıxış edirdi, xəzinə kəndliləri bu torpaqlardan icmalıqla istifadə etməli, bunun müqabilində dövlətə töycü ödəməli, mükəlləfiyyət daşımalı idilər. Qanunda qeyd olunurdu ki, «kənd icması yığıncaqlarına, yığıncaqda əsas səs hüququ olan ailə başçılarının üçdə iki hissəsinin razılığı ilə torpaqlardan icma qaydasilə istifadə etməyi həyətyanı istifadə ilə (nəsli) əvəz etməyə icazə verir» (14, s.199). Qanun «xəzinə kəndlilərini kənd icmalarına, çoxdan bəri onların istifadəsində olub heç bir münaqişə doğurmayan torpaqlar verirdi» (14, s.199).

Göstərilən qanuna görə xəzinə kəndlilərinin böyük hissəsi torpaqla təmin edilmədən dövlətdən, qolçomaqlardan və varlı kəndlilərdən tam asılı saxlamaqla, torpaqlar dövlətin ixtiyarında qalırdı. Xəzinə kəndliləri istənilən vaxt kənddən çıxıb başqa yerə getmək hüququna malik olmasına baxmayaraq onlar, torpaq sahəsini kənd icmasına təhvil verib gedəndə, sonralar hansısa torpaq sahəsinin sahibi olması haqqında iddia ilə çıxış etməyəcəyini yazılı şəkildə verməli idilər (1, v.50).

1900-cü il 1 may qanunu 1901-ci ildə, evbaşı toplanan vergiləri dövlət töycü vergisi ilə əvəz edilməsini nəzərdə tuturdu. Evbaşı toplanan vergilər zamanı vergi qoyulma obyekti – «tüstü» (təsərrüfat, həyət) idi, verginin məbləği isə təyin olunmuş orta həyət okladın həyətlərin sayına vurulması ilə müəyyən olunur. Evbaşı toplanan verginin məbləği yeni kameral təsvirlər tərtib olunanadək heç bir dəyişikliyə məruz qalmamışdı (6, s.110).

Qafqazın baş rəisinin təşəbbüsü ilə 1899-cu ilin ikinci yarısında Tiflisdə vergi islahatı haqqında qanun layihəsini hazırlayan yerli idarənin və Maliyyə Nazirliyinin nü-

mayəndələrindən ibarət xüsusi komissiya yaradılır. Dövlət Şurasında baxıldıqdan sonra 1900-cü il iyunun 12-də «Qafqazda xəzinənin xeyrinə toplanan evbaşı mükəlləfiyyətlərin ləğvi və bunun əvəzinə dövlət töycü mükəlləfiyyəti və torpaq vergisi haqqında» qanun təsdiq edildi. Bu qanun 1901-ci il yanvarın 1-dən qüvvəyə mindi.

Torpaqların gəlirlərini müəyyən etmək üçün bütün torpaqlar 1) bağlar, 2) şumlanan və biçin, 3) meşə və otlaq olmaqla üç dərəcəyə ayrılmışdı. Quberniyaların hər birinin ayrı-ayrılıqda torpağın məhsuldarlığı, alınan məhsulun keyfiyyəti, mövcud qiymət və satış şərtləri habelə icarə qiymətlərinin köməyi ilə torpaqdan istifadə xərclərin yoxlanması üzrə bir desyatindən hər üç torpaq dərəcəsi üçün təmiz orta gəlir müəyyən olunurdu. Töycü üç illiyə hesablanırdı və həmin müddətdə vergini bu və ya digər tərəfə dəyişmək olurdu. Dövlət torpaq vergisi (bu hər desyatin üzrə oklad adlanırdı) 12 iyun 1900-cü il qanununa görə bir desyatindən təmiz orta gəlir kimi 1,8 faiz müəyyən olunurdu. Toplanma üç illiyə aparılırdı (5, s. 222-223).

Bu qanuna əsasən xəzinə kəndliləri daimi istifadəsində olan xəzinə torpaqları üçün töycü mükəlləfiyyəti, bütün başqa torpaqlar üçün torpaq vergisi, həmişəlik zemski vergisi müəyyən edildi. Töycü vergisinə torpaq vergisindən başqa xəzinə kəndlilərinin xalis gəlirlərinin 10-12 faiz də daxil idi (18, s.115). Dövlət Şurasının rəyinə görə indi xəzinə kəndliləri dövlət torpaq vergisi kimi pul formasında renta ödəyirlər (15, s.74).

1900-cü il 1 may qanunun qarşıya qoyduğu vəzifələri həyata keçirmək üçün həmin qanunun 14-cü maddəsində göstərildiyi kimi «Cənubi Qafqazın beş quberniyasında pay torpaqlarını müəyyənləşdirmək və torpaq quruluşu işi aparmağı müəyyən etmək qaydası haqqında» əsasnamə hazırlamaq lazım gəlirdi. Layihə hazırlandı və 1903-cü ilin aprelin 21-də təsdiq olundu. Əsasnamə 1 may tarixli qanunun müddəalarına o qədər də uyğun gəlmirdi. Əgər 1900-cü il qanununda pay torpaqlarını kənd icmalarına təhkim etmək üçün plan və aktların tərtibi zamanı bu torpaqların sərhəddini onun faktik istifadə olması ilə müəyyənləşdirilməsi nəzərədə tutulurdusa, 1903-cü il 12 aprel əsasnaməsi bu işi xeyli mürəkkəbləşdirdi. Əsasnaməyə görə pay torpaqlarının layihəsi hazırlanmalı, onlar torpaq quruluşu komissiyalarında müzakirə və təsdiq edilməli idi. Bundan sonra isə kənd icmalarının torpaq payının sərhəddi müəyyənləşdirilmiş hesab olunurdu (13, s. 186).

1906-cı ildə Tiflisdə «kifayət qədər təmin olunmayan kəndlilərin torpaq təminatı işinin yaxşılaşdırılması üzrə» Y.S.Medvedyevin rəhbərliyi ilə komissiya yaradılır. Komissiya tərəfindən canişinin göstərişi ilə həmin ilin aprel-may aylarında «torpaq təminatı qaydalarının sadələşdirilməsini təmin edən tədbirlər» haqqında məsələyə baxılır və sentyabr ayının 30-da əldə edilən nəticələr canişin şurasına təhvil verilir (6, s. 112). Üç ildən sonra canişin Voronsov-Daşkov xəzinə kəndlilərinin torpaq pay quruluşu qaydasını dəyişmək haqqında nazirlər şurasına qanun layihəsini təqdim etdi. Layihədə kəndlilərin istifadəsində olan torpaqların onların xüsusi mülkiyyətinə verilməsi nəzərdə tutulurdu. Orada göstərilirdi ki, xüsusi torpaq mülkiyyəti dövlətin əsasını, əhalinin iqtisadi həyatının düzgün inkişafı üçün lazımi şərtlərdən birini təşkil edir və hazırda imperiya daxilində xırda kəndli torpaq sahibliyini yaratmaqla kəndlilərin torpaq quruluşu məsələsində xüsusi mülkiyyət prinsipi qəbul olunmalıdır (5, s. 221). Uzun sürən müzakirələrdən sonra «Qafqaz diyarı xəzinə torpaqlarında sakin olan kəndlilərin torpaq təminatı haqqında» layihə və ona uyğun gələn «Qaydalar» 1913-cü ilin fevralında Dövlət Dumasına təqdim edilir. Onun layihəsinə 1916-cı ildə baxılacaqdı (6, s.112).

Beləliklə, aqrar məsələnin belə həll olunması «feodalizmin qalıqlarını qoruyub saxlamağa və kapitalizmin inkişafının qarşısını almağa yönəlmiş mürtəce bir tədbir idi» (3, s.24). Xəzinə kəndlilərinin torpaqla təminatı haqqında islahatlar Stolıpinin aqrar

qanunvericiliyinə tam cavab verirdi və heç bir təcrübi əhəmiyyət daşımırdı. Bu islahatlar islahat naminə keçirilmişdi.

## ƏDƏBİYYAT

1.Azərbaycan Respublikası Dövlət Tarix Arxifi, f. 22, siy. 1, iş. 851.
2.AMEA Tarix İnstitutunun Elmi Arxivi, inv. 4028.
3.Антелава Н.Г. Реформа поземельного устройства государственных крестьян Закавказья в конце XIX в. (Сборник документов). Сухуми: Госиздат Абхазской АССР, 1952. – 296 с.
4.Антелава Н.Г. Государственные крестьяне Грузии в XIX в. Тбилиси: Изд-во АН Груз. ССР, 1962. – 361.
5.Богданова Н.Г. Аграрные отношения в Азербайджане в 1870-1917 гг. – Исторические записки, 1941, т. 12, с. 200-227.
6.Гасанов Г. Из истории североазербайджанской деревни в конце XIX – начале XX вв. Баку: Изд-во Тахсил, 2007. – 224 с.
7.Гасанов И.М. О земельной обеспеченности государственных крестьян Азербайджана в конце XIX в. - Доклада АН Азерб. ССР, 1962, т. 13, №10, с. 83-87.
8.Гасанов И.М. Повинности государственных крестьян Азербайджана в конце XIX века – Известия АН Азерб. ССР. Серия обществ. наук, 1962, №11012, с. 25-38.
9.Гасанов И.М. О повинностях государственных крестьян Азербайджана в начале XX века – Труды Института Истории АН Азерб. ССР, 1963, т. 16, с. 125-146.
10.Гасанов И.М. Из истории земельной политики царизма в Азербайджане и Закавказье в начале XX века. К вопросу о реализации аграрного закона 1900 г. – Доклада АН Азерб. ССР, 1963, т. XIX, №6, с. 95-98.
11.Гасанов И.М. О некоторых вопросах землепользования государственных крестьян Азербайджана в конце XIX века – Известия АН Азерб. ССР, 1963, №3, с. 39-55.
12.Исмаилов М.А. Государственные крестьяне Азербайджана в конце XIX в. – Труды Института Истории, 1957, т. X, с. 111-156.
13.İsmayılov M.Ə. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda torpaq mülkiyyəti və torpaqdan istifadə formaları – Tarix İnstitutunun əsərləri, 1958, XIII c., s. 177-200.
14.İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın kənd təsərrüfatı. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1960. – 240 s.
15.Кавказский календарь, 1901, отдел III.
16.Кавказское сельское хозяйство, 1896, №142.
17.Материалы для изучения экономического быта государственных крестьян Закавказского края, т. I-VII. Тифлис, 1895-1887.
18.Материалы для изучения хлопководства, СПб., 1912. – 146с .
19.Məmmədova L.L. Hərracla torpaq icarəsi məsələlərinə dair (XIX əsrin 70-90-cı illəri) - XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda kapitalist münasibətlərinin inkişafı (Elmi əsərlərin tematik məcmuəsi). Bakı, 1981, s. 63-75.
20.Orucov H.A. Stolıpin irticası dövründə Azərbaycanda çarizmin aqrar siyasəti haqqında – Учёные записки АГУ им. С.М.Кирова.
21.Сегаль И.Л. Крестьянское землевладение в Закавказье. Тифлис, 1912, 162 с.
22.Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в. Баку: Изд-во АН Азерб. ССР, 1959, 334 с.

**АЛИ АХМЕДОВ**
*диссертант Института Истории им. А.А.Бакиханова*

**К ЗЕМЕЛЬНОМУ ОБЕСПЕЧЕНИЮ КАЗЁННЫХ КРЕСТЬЯН СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА В КОНЦЕ XIX – НАЧАЛЕ XX ВВ.**

В настоящей статье на основе многочисленных и достоверных источников рассматриваются вопросы земельного обеспечения казённых крестьян Бакинской губернии.

Здесь особо отмечается, что казённые крестьяне, которые составляли более 70% всего сельского населения губернии страдали малоземельем. Основная часть всего земельного фонда находилась в распоряжении государственной казны, которая хищнически грабила казённых крестьян этого края.

**ALI AMEDOV**
*dis. of Institute of a History by him A.A.Baкikhanova*

**TO LAND MAINTENANCE CADET THE PEASANTS OF NORTHERN AZERBAIJAN IN THE END XIX - BEGINNING XX CENTURY**

In the present article on the basis of numerous and authentic sources the problems of land maintenance Cadet of the peasants of the Baku province are esteemed.

Here it is apart marked, that cadet ion the peasants, which one made from above more than 70 % of all agricultural population of a province suffered affliction by a shortage of arable land. The main body of all land fund was at the command of state treasury, which one injuriously plundered the state peasants of this bound arouse.

*Rəyçilər: t.e.n.E.Ə.Məhərrəmov, t.e.d.S.A.Məmmədli.*

*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu «Azərbaycanın yeni tarixi» şöbəsinin 07 aprel 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №02).*